İPƏK YOLU, No.3, 2026, səh.127-147
https://doi.org/10.30546/SI.2026.03.01.134

# QARABAĞ İQTİSADİ RAYONUNDA İQTİSADİYYATIN DİVERSİFİKASİYA STRATEGİYASI - BİZNES SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ AMİLİ KİMİ

**İsmayıl İsmayılov, Pərviz Rüstəmov, İradə Abdullayeva, İradə Nəbiyeva**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: ismayil.ismayilov@unec.edu.az, rustamovparviz999@gmail.com, irada.abdullayeva@unec.edu.az, irada.nabiyeva@unec.edu.az

**Xülasə.** Məqalədə Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın diversifikasiyası ilə biznes sabitliyi arasındakı əlaqə sistemli, müqayisəli, statistik, kontent, SWOT və PEST təhlili əsasında araşdırılmışdır. Tədqiqatın məqsədi işğaldan azad edilmiş ərazilərdə formalaşan yeni iqtisadi modelin əsas istiqamətlərini qiymətləndirmək, sənaye parkları, aqrobiznes, yaşıl enerji, logistika və rəqəmsal transformasiyanın regional biznes mühitinin dayanıqlığına təsir mexanizmlərini müəyyənləşdirmək və Qarabağ iqtisadi rayonu üçün konseptual diversifikasiya modeli təqdim etməkdir. Statistik təhlil Ağdam Sənaye Parkında istehsal və ixrac fəallığının sürətli genişləndiyini göstərir: rəsmi məlumatlara görə məhsul satışı 2024-cü ildə 22,3 mln. manatdan 2025-ci ildə 1 393 mln. manata yüksəlmiş, ixrac isə 20 min manatdan 62,3 mln. manata çatmışdır. Eyni zamanda rezidentlərin, faktiki investisiyaların və yaradılmış iş yerlərinin artması müşahidə olunur. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da rezident sayı və faktiki investisiyalar üzrə müsbət dinamika qeydə alınmışdır. SWOT və PEST təhlili regional diversifikasiyanın əsas üstünlüklərini - dövlət infrastrukturu, çoxşaxəli resurs bazası, yaşıl enerji və logistika imkanlarını və əsas məhdudiyyətlərini - qısa statistik zaman sıraları, bazarların formalaşma mərhələsi, insan kapitalı və institusional icra risklərini sistemləşdirir. Tədqiqatın elmi yeniliyi Porter-in klaster yanaşması, Rodrik-in struktur transformasiya konsepsiyası və Hausmann-Hidalgo-nun iqtisadi mürəkkəblik nəzəriyyəsinin postmünaqişə regional inkişaf şəraitinə inteqrativ uyğunlaşdırılmasından ibarətdir. Təklif olunan model ekonometrik model deyil; mövcud rəsmi statistik göstəricilər və nəzəri yanaşmalar əsasında qurulmuş konseptual çərçivədir. Model dövlət investisiyaları, infrastruktur və institusional mühitin özəl investisiya, innovasiya, ixrac, məşğulluq və regional gəlirlər vasitəsilə biznes sabitliyinə təsirini izah edir və gələcəkdə daha uzun zaman sıraları formalaşdıqda empirik yoxlama üçün əsas yaradır.

**Açar sözlər:** Qarabağ iqtisadi rayonu, iqtisadi diversifikasiya, regional inkişaf, biznes sabitliyi, yaşıl iqtisadiyyat, sənaye parkları, qeyri-neft sektoru, dayanıqlı inkişaf.

**ECONOMIC DIVERSIFICATION STRATEGY IN THE KARABAKH ECONOMIC REGION: BUSINESS AS A STABILITY FACTOR**

**Ismayil Ismayilov, Parviz Rustamov, Irada Abdullayeva, Irada Nabiyeva**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** This paper examines the relationship between economic diversification and business resilience in the Karabakh Economic Region using systemic, comparative, statistical, content, SWOT and PEST analysis. The study evaluates the

emerging post-conflict economic model, focusing on industrial parks, agribusiness, green energy, logistics and digital transformation. Official data indicate a sharp acceleration of industrial activity in the Aghdam Industrial Park: product sales increased from AZN 22.3 million in 2024 to AZN 1.393 billion in 2025, while exports rose from AZN 0.02 million to AZN 62.3 million. The Araz Valley Economic Zone Industrial Park also demonstrates positive dynamics in the number of residents and actual investment. Business resilience is operationalized through measurable proxy indicators including the number and dynamics of enterprises/residents, actual investment, employment, sales, exports and market diversification. The scientific contribution lies in integrating Porter's cluster approach, Rodrik's structural transformation framework and the Hausmann-Hidalgo economic complexity perspective into a post-conflict regional development setting. The proposed framework is explicitly conceptual rather than econometric: it synthesizes theory and available official statistics to explain the chain from public investment and infrastructure through institutional conditions and private investment to innovation, exports, employment, regional income and business resilience. The framework also identifies variables that can be tested empirically once longer and more comparable time series become available.

**Keywords:** Karabakh Economic Region, economic diversification, regional development, business resilience, sustainable development, green economy, industrial parks, non-oil sector.

## 1. Giriş

Son onilliklərdə qlobal iqtisadiyyatda baş verən geosiyasi dəyişikliklər, enerji bazarlarında volatillik, iqlim dəyişmələri və rəqəmsal transformasiya iqtisadiyyatın diversifikasiyasını dövlətlərin uzunmüddətli inkişaf strategiyalarının əsas istiqamətlərindən birinə çevirmişdir. Xüsusilə təbii resurslardan yüksək asılı olan iqtisadiyyatlarda diversifikasiya iqtisadi artımın davamlılığı ilə yanaşı, makroiqtisadi sabitlik, iqtisadi təhlükəsizlik və biznes mühitinin dayanıqlığı üçün mühüm şərt kimi çıxış edir [17; 26].

Azərbaycan Respublikasında iqtisadiyyatın şaxələndirilməsi dövlət iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir və bu yanaşma "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz əksini tapmışdır. Strategiyada qeyri-neft sektorunun inkişafı, regional iqtisadi fəallığın artırılması, innovasiya, rəqəmsallaşma və özəl investisiyaların təşviqi əsas prioritetlər kimi müəyyən edilmişdir [5; 6]. Eyni zamanda işğaldan azad edilmiş ərazilərin bərpası və milli iqtisadi sistemə inteqrasiyası strateji hədəf kimi çıxış edir. Bu kontekstdə Qarabağ iqtisadi rayonu Azərbaycanın yeni regional inkişaf modelinin mühüm elementi kimi formalaşır. Regionda həyata keçirilən bərpa və yenidənqurma tədbirləri yalnız infrastrukturun yenilənməsinə deyil, həm də yaşıl enerji, müasir sənaye, aqrobiznes, rəqəmsal texnologiyalar və dayanıqlı turizmə əsaslanan yeni iqtisadi sistemin qurulmasına yönəlmişdir. Bu isə Qarabağı klassik postmünaqişə bərpa modelindən fərqləndirərək daha kompleks inkişaf yanaşmasını formalaşdırır. Bununla belə, Qarabağ iqtisadi rayonunda iqtisadi diversifikasiya siyasətinin biznes sabitliyinə və uzunmüddətli iqtisadi dayanıqlığa təsiri sistemli şəkildə kifayət qədər tədqiq edilməmişdir. Mövcud elmi ədəbiyyat daha çox sektorlar üzrə parçalanmış yanaşmaya əsaslanır və inteqrativ iqtisadi modelin qiymətləndirilməsi nisbətən az işlənmişdir.

Tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonunda iqtisadi diversifikasiya strategiyasının biznes sabitliyinə təsirini nəzəri və empirik göstəricilər əsasında qiymətləndirmək, beynəlxalq yanaşmalarla müqayisə aparmaq və regionun postmünaqişə xüsusiyyətlərini nəzərə alan konseptual model təqdim etməkdir. Bu məqsədlə biznes sabitliyi ölçülə bilən proksi-göstəricilər vasitəsilə əməliyyatlaşdırılır, sənaye parklarının dinamikası

təhlil olunur, SWOT və PEST nəticələri ayrıca sistemləşdirilir və konseptual modelin gələcək empirik yoxlanması üçün dəyişənlər müəyyən edilir.

## 2. Ədəbiyyat icmalı

İqtisadi diversifikasiya müasir iqtisadi nəzəriyyədə iqtisadi artımın davamlılığı, xarici şoklara həssaslığın azalması və regional rəqabət qabiliyyətinin gücləndirilməsi ilə əlaqələndirilir. Resurs gəlirlərindən yüksək asılı iqtisadiyyatlarda şaxələndirmə yalnız yeni sektorların yaradılması deyil, həm də məhsuldarlıq, institusional keyfiyyət, sahibkarlıq və ixrac imkanlarının genişləndirilməsi vasitəsilə iqtisadi strukturun dəyişdirilməsi prosesidir [19; 26].

Michael E. Porter-in yanaşmasında rəqabət üstünlüyü ayrı-ayrı müəssisələrin fəaliyyətindən daha geniş - qarşılıqlı əlaqəli şirkətlər, təchizatçılar, infrastruktur, insan kapitalı və institutların formalaşdırdığı klaster sistemi çərçivəsində izah edilir [20; 21]. Bu yanaşmanın Qarabağ üçün üstünlüyü sənaye parkları, logistika, aqrobiznes və xidmət sektorları arasında kooperasiya əlaqələrinin izah edilməsidir. Lakin Porter modeli postmünaqişə bərpasında dövlət investisiyalarının ilkin katalizator rolunu və biznes sabitliyinin ayrıca ölçülməsini birbaşa modelləşdirmir.

Dani Rodrik struktur transformasiyanı aşağı məhsuldarlıqlı fəaliyyətdən daha yüksək məhsuldarlıqlı istehsal və xidmət sahələrinə keçid kimi qiymətləndirir və bu prosesdə sənaye siyasəti, institutlar və dövlətin koordinasiya rolunu ön plana çıxarır [23]. Qarabağ şəraitində bu yanaşma ilkin bərpa xərclərinin istehsal, emal, logistika və ixracyönümlü fəaliyyətlərə çevrilməsini izah etmək üçün əhəmiyyətlidir. Bununla yanaşı, Rodrik-in yanaşması konkret postmünaqişə regionunda yaşıl enerji, rəqəmsallaşma və biznes sabitliyi indikatorlarını vahid regional modeldə birləşdirmir. Hausmann və Hidalgo iqtisadi mürəkkəblik yanaşmasında inkişafı iqtisadiyyatın malik olduğu istehsal qabiliyyətlərinin müxtəlifliyi və mürəkkəbliyi ilə əlaqələndirirlər [7]. Bu yanaşma Qarabağda kənd təsərrüfatı və xammal fəaliyyətindən emal sənayesi, logistika, yaşıl texnologiyalar və rəqəmsal xidmətlərə keçidin uzunmüddətli əhəmiyyətini əsaslandırır. Lakin iqtisadi mürəkkəblik nəzəriyyəsi bərpa prosesinin maliyyələşdirilməsi və dövlət investisiyalarının özəl investisiyaya transformasiyası mexanizmini ayrıca izah etmir.

Dünya Bankı və OECD-nin yanaşmaları diversifikasiyanın institusional və siyasət ölçüsünü tamamlayır. Dünya Bankı Azərbaycan üzrə məhsuldarlıq, özəl sektorun inkişafı, yaşıl keçid və əlaqəliliyi əsas prioritetlər kimi göstərir [25; 30]. OECD isə rəqabətqabiliyyətlilik, biznes mühiti, insan kapitalı, rəqəmsal transformasiya və yaşıl iqtisadiyyatın qarşılıqlı əlaqəsinə diqqət yetirir [18; 19]. Bu hesabatların üstünlüyü siyasət indikatorlarının genişliyidir, lakin onlar Qarabağ iqtisadi rayonu üçün ayrıca biznes sabitliyi modeli təqdim etmir.

Postmünaqişə iqtisadiyyatlarına dair tədqiqatlar göstərir ki, fiziki rekonstruksiya uzunmüddətli inkişaf üçün zəruri olsa da, özəl investisiyalar, sahibkarlıq, məhsuldarlıq, institusional etimad və məşğulluq genişlənmədikdə bərpa dayanıqlı struktur transformasiyaya

çevrilmir [24; 29]. Buna görə Qarabağ iqtisadi rayonunun qiymətləndirilməsində "infrastrukturun bərpası" ilə "yeni iqtisadi strukturun formalaşması" arasında fərq nəzərə alınmalıdır.

**Cədvəl 1.** İqtisadi diversifikasiya yanaşmalarının müqayisəli qiymətləndirilməsi

| Yanaşma | Əsas nəticə/mexanizm | Məhdudiyyət | Qarabağ üçün tətbiqi |
|---|---|---|---|
| Porter (1990; 1998) | Klasterlər, rəqabət üstünlüyü, biznes-təchizatçı-infrastruktur əlaqələri | Postmünaqişə bərpasını və biznes sabitliyini ayrıca ölçmür | Sənaye parkları və sektorlararası kooperasiya |
| Rodrik (2004) | Aşağı məhsuldarlıqdan yüksək məhsuldarlığa struktur keçid; sənaye siyasəti | Regional ekosistem və biznes sabitliyi indikatorları ayrıca qurulmur | Bərpadan istehsal və ixracyönümlü transformasiyaya keçid |
| Hausmann-Hidalgo (2011) | İstehsal qabiliyyətlərinin müxtəlifliyi və iqtisadi mürəkkəblik | Dövlət investisiyasının özəl kapitala transformasiyası əsas obyekt deyil | Yüksək əlavə dəyərli və yeni fəaliyyətlərin genişlənməsi |
| World Bank/OECD | İnstitutlar, infrastruktur, özəl sektor, yaşıl keçid, insan kapitalı | Daha çox siyasət çərçivəsidir; Qarabağ üçün vahid model təqdim etmir | Regional siyasət və ölçülə bilən indikatorların seçilməsi |
| Müəlliflərin modeli | Postmünaqişə investisiya-infrastruktur-özəl sektor-nəticə zənciri | Hazırkı mərhələdə konseptualdır; uzun zaman sıraları məhduddur | Biznes sabitliyini ölçülə bilən nəticə kimi inteqrasiya edir |

**Mənbə:** Müəlliflər tərəfindən Porter (1990; 1998), Rodrik (2004), Hausmann və Hidalgo (2011), World Bank və OECD materialları əsasında hazırlanmışdır.

Mövcud ədəbiyyatın müqayisəsi üç əsas nəticə verir. Birincisi, Porter istehsal və biznes əlaqələrinin məkan-klaster mexanizmini; Rodrik məhsuldarlıq yönümlü struktur transformasiyanı; Hausmann-Hidalgo isə istehsal qabiliyyətlərinin müxtəlifliyi və mürəkkəbliyini izah edir. İkincisi, Dünya Bankı və OECD bu nəzəri yanaşmaları institusional mühit, infrastruktur, yaşıl keçid və özəl sektor siyasəti ilə tamamlayır. Üçüncüsü, mövcud yanaşmaların heç biri Qarabağın postmünaqişə şəraitində dövlət investisiyası → infrastruktur və institutlar → özəl investisiya → innovasiya/ixrac/məşğulluq → biznes sabitliyi ardıcıllığını ayrıca regional çərçivədə birləşdirmir.

Məqalənin elmi yeniliyi həmin yanaşmaları əvəz etmək deyil, onların tamamlayıcı elementlərini Qarabağ iqtisadi rayonunun xüsusi şəraitində vahid konseptual çərçivədə birləşdirməkdir. Təklif olunan model biznes sabitliyini ayrıca nəticə dəyişəni kimi nəzərdən keçirir və onu müəssisələrin/rezidentlərin dinamikası, faktiki investisiyalar, məşğulluq, satış, ixrac və bazar şaxələndirilməsi kimi müşahidə edilə bilən proksi-göstəricilərlə əlaqələndirir.

## 3. Tədqiqatın metodologiyası

Problemin çoxşaxəli xarakteri nəzərə alınaraq, tədqiqatda keyfiyyət və təsviri kəmiyyət metodları kombinə edilmişdir. Tədqiqatın nəzəri-metodoloji əsasını regional iqtisadiyyat, struktur transformasiya, klaster inkişafı, iqtisadi mürəkkəblik və dayanıqlı inkişaf konsepsiyaları təşkil edir. Empirik baza uzun zaman sıralarının məhdudluğu səbəbindən, əsasən, rəsmi inzibati və statistik məlumatların dinamik və müqayisəli təhlilinə söykənir.

Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə edilmişdir:

Sistemli yanaşma - sənaye, aqrobiznes, enerji, logistika, rəqəmsal infrastruktur və institusional mühit qarşılıqlı əlaqəli regional sistemin elementləri kimi qiymətləndirilmişdir.

Müqayisəli təhlil - Qarabağ iqtisadi rayonunun inkişaf modeli Bosniya və Herseqovina kimi postmünaqişə iqtisadiyyatlarının təcrübəsi və beynəlxalq siyasət çərçivələri ilə müqayisə edilmişdir.

Statistik təhlil - Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı üzrə rezidentlərin sayı, investisiya həcmi, yaradılmış iş yerlərinin sayı, fəaliyyət göstərən müəssisələrin sayı, satış və ixrac göstəricilərinin səviyyəsi və dinamikası təhlil edilmişdir. Dinamik dəyişikliklərin qiymətləndirilməsi üçün mütləq dəyişmə $\Delta X = X_t - X_{t-1}$ və artım tempi $g = (X_t/X_{t-1} - 1) \times 100\%$ hesablanmışdır. Bundan əlavə, ixracın ümumi satış həcmində xüsusi çəkisi $(E/S) \times 100\%$ və fəaliyyət göstərən müəssisələrin ümumi rezidentlərin sayında payı müəyyən edilmişdir.

Kontent təhlili - dövlət proqramları, normativ-strateji sənədlər, İqtisadi Zonaların İnkişafı Agentliyinin rəsmi məlumatları, Dünya Bankı və OECD hesabatları və seçilmiş elmi nəşrlər mövzu üzrə kodlaşdırılmış istiqamətlər - infrastruktur, investisiya, istehsal, ixrac, məşğulluq, innovasiya, yaşıl keçid və institusional mühit üzrə sistemləşdirilmişdir.

SWOT və PEST təhlili - SWOT çərçivəsində regionun daxili güclü və zəif tərəfləri, xarici imkan və təhdidləri; PEST çərçivəsində isə siyasi-institusional, iqtisadi, sosial və texnoloji amillər ayrıca qiymətləndirilmişdir. Təhlilin konkret nəticələri növbəti bölmədə cədvəllər şəklində təqdim olunmuşdur.

Konseptual modelləşdirmə - mövcud nəzəri yanaşmalar və rəsmi göstəricilərin sintezi əsasında diversifikasiyanın biznes sabitliyinə təsir mexanizmini təsvir edən konseptual model qurulmuşdur. Model statistik səbəb-nəticə modeli kimi təqdim edilmir; onun empirik testləşdirilməsi üçün tələb olunan dəyişənlər və gələcək yoxlama istiqamətləri ayrıca göstərilir.

## 4. Biznes sabitliyinin əməliyyatlaşdırılması

Məqalədə "biznes sabitliyi" müəssisələrin və regional biznes ekosisteminin fəaliyyətini davam etdirmək, investisiya və məşğulluğu qorumaq/genişləndirmək, satış və ixrac bazarlarını inkişaf etdirmək və xarici şoklara uyğunlaşmaq qabiliyyəti kimi qəbul edilir. Qarabağ iqtisadi rayonu üzrə müəssisə səviyyəsində uzunmüddətli maliyyə hesabatları hələ məhdud olduğuna görə anlayış birbaşa deyil, aşağıdakı müşahidə edilə bilən proksi-göstəricilər vasitəsilə qiymətləndirilir:

**Cədvəl 2.**

| İndikator | Ölçmə üsulu | Biznes sabitliyi baxımından mənası |
|---|---|---|
| Rezident/müəssisələrin sayı və dinamikası | Say; illər üzrə artım tempi | Biznes bazasının genişlənməsi |
| Faktiki özəl investisiya | mln. manat; dövrlər üzrə artım | İnvestor etimadı və kapitalın regionda möhkəmlənməsi |
| Daimi iş yerləri | Say; artım tempi | Fəaliyyətin real iqtisadi və sosial nəticəsi |
| Satış/istehsal həcmi | mln. manat; dinamik artım | Bazar fəaliyyətinin miqyası və davamlılığı |
| İxrac və ixracın satışda payı | mln. manat; E/S × 100% | Xarici bazarlara çıxış və bazar şaxələndirilməsi |
| Fəaliyyət göstərən müəssisələrin payı | Fəal müəssisə / rezident × 100% | Qeydiyyatdan faktiki istehsala keçid səviyyəsi |

**Qeyd:** Bu göstəricilər biznes sabitliyinin tam maliyyə ölçüsü deyil; məlumat məhdudiyyətləri şəraitində regional biznes fəallığının və dayanıqlığının qiymətləndirilməsi üçün istifadə olunan proksi-göstəricilərdir.

## 5. Tədqiqatın informasiya bazası və məhdudiyyətləri

Tədqiqatın informasiya bazasını aşağıdakı mənbələr təşkil edir:

– Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası;

– Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi statistik nəşrləri;

– İqtisadiyyat Nazirliyi və İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatları;

– Dünya Bankının "Azerbaijan Country Economic Memorandum (2022)" və "Country Climate and Development Report və Country Partnership Framework FY25-29" adlı sənədləri;

– OECD və digər beynəlxalq təşkilatların regional inkişaf və iqtisadi diversifikasiya üzrə analitik hesabatları.

Tədqiqatın əsas məhdudiyyəti Qarabağ iqtisadi rayonunda iqtisadi fəaliyyətin yeni formalaşması və uzunmüddətli, eyni metodologiya ilə hazırlanmış zaman sıralarının hələ məhdud olmasıdır. Bəzi erkən mənbələrdə investisiya və iş yerləri plan göstəricisi, sonrakı mənbələrdə isə faktiki icra göstəricisi kimi verildiyinə görə onlar birbaşa eyni seriya kimi şərh edilmir. Buna görə məqalədə səbəb-nəticə əlaqələri üzrə ekonometrik iddia irəli sürülmür; statistik nəticələr təsviri dinamikanı göstərir. Daha uzun və müqayisə edilə bilən məlumat sıraları formalaşdıqda model korrelyasiya, çoxamilli reqressiya və panel məlumatları vasitəsilə empirik yoxlana bilər.

## 6. Təhlil

**Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın diversifikasiyası üçün resurs potensialının və institusional əsasların qiymətləndirilməsi.** İqtisadiyyatın diversifikasiyasının uğuru ilk növbədə regionun resurs potensialından, institusional mühitindən və bazarlara inteqrasiya imkanlarından asılıdır. Müasir regional inkişaf nəzəriyyələrinə görə [7;

21], iqtisadi artım yalnız mövcud təbii ehtiyatlardan istifadə ilə deyil, həmin resursların yüksək əlavə dəyər yaradan fəaliyyət sahələrinə çevrilməsi ilə təmin olunur.

Bu baxımdan Qarabağ iqtisadi rayonu Azərbaycanın digər iqtisadi rayonlarından bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, region:

- Zəngin kənd təsərrüfatı resurslarına malikdir;
- Əhəmiyyətli hidroenerji potensialına sahibdir;
- Tikinti materialları sənayesi üçün əlverişli xammal bazasına malikdir;
- Beynəlxalq nəqliyyat marşrutlarına yaxın yerləşir;
- Sıfırdan müasir infrastruktur üzərində qurulan yeni iqtisadi model formalaşdırır.

Məhz bu üstünlüklər regionun iqtisadiyyatının yalnız bərpasını deyil, eyni zamanda struktur baxımından yenidən qurulmasını mümkün edir. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin aşağıdakı prinsiplər əsasında qurulmasını nəzərdə tutur:

a) Özəl sektorun aparıcı rolu;
b) İnnovasiya əsaslı iqtisadiyyat;
c) Yaşıl enerji;
d) Rəqəmsallaşma;
e) Müasir logistika;
f) Dayanıqlı kənd təsərrüfatı;
g) İxracyönümlü istehsal [5].

Bu yanaşma klassik regional inkişaf modelindən fərqli olaraq postmünaqişə və struktur transformasiyaya əsaslanan yeni iqtisadi inkişaf modelinə keçidi nəzərdə tutur [25; 26]. Regional iqtisadi inkişaf nəzəriyyəsinə görə təbii resursların mövcudluğu iqtisadi inkişaf üçün zəruri olsa da, kifayət edən şərt hesab edilmir. Resurslardan səmərəli istifadə yalnız institusional keyfiyyət, insan kapitalı və investisiya mühiti ilə tamamlandıqda dayanıqlı iqtisadi artım təmin olunur. Qarabağ iqtisadi rayonu bu baxımdan çoxşaxəli resurs bazasına malikdir. Belə ki, region həm kənd təsərrüfatı üçün imkanlar, həm faydalı qazıntılar, həm də su və hidroenerji ehtiyatları baxımından çox zəngindir.

Kənd təsərrüfatı üçün imkanlar - region geniş əkin sahələri, otlaq və biçənəklər, su ehtiyatları və müxtəlif aqroiqlim zonaları ilə seçilir. Bu isə bəzi istiqamətlər üzrə ixtisaslaşma üçün əlverişli şərait yaradır. Bura aiddir: taxılçılıq; üzümçülük; meyvəçilik; tərəvəzçilik; heyvandarlıq; arıçılıq.

Ən mühüm üstünlük isə aqrar məhsulların ilkin istehsalı ilə kifayətlənməyərək onların emal sənayesinin inkişaf etdirilməsi imkanlarıdır. Bu, kənd təsərrüfatı ilə sənaye arasında əlavə dəyər zəncirinin formalaşdırılmasına şərait yaradır.

Faydalı qazıntılar - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən, Qarabağ və Şərqi Zəngəzur ərazilərində müxtəlif növ faydalı qazıntı yataqları mövcuddur. Bunlara tikinti materialları, mərmər, əhəngdaşı, gips, gil,

qum-çınqıl və digər yataqlar daxildir. Bu ehtiyatlar tikinti materialları sənayesinin inkişafı üçün mühüm baza yaradır [2].

Su və hidroenerji ehtiyatları - region Azərbaycanın əsas çay hövzələrindən biri hesab olunur. Kiçik su elektrik stansiyalarının bərpası və yenilərinin tikilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzur "Yaşıl Enerji Zonası" konsepsiyasının əsas dayaqlarından birinə çevrilmişdir [4; 31]. Dünya Bankı da Azərbaycanın yaşıl iqtisadiyyata keçidində bərpa olunan enerji və dayanıqlı infrastrukturun prioritet rolunu xüsusi vurğulayır [27].

Regional iqtisadiyyat üzrə müasir nəzəriyyələrdə infrastruktur yalnız istehsala xidmət edən element kimi deyil, iqtisadi artımın müstəqil amili kimi qiymətləndirilir. Xüsusilə postmünaqişə ərazilərində nəqliyyat, enerji və rəqəmsal infrastrukturun bərpası özəl investisiyaların cəlb olunması üçün ilkin şərt hesab edilir. Qarabağ iqtisadi rayonunda son illərdə həyata keçirilən iri dövlət investisiyaları nəticəsində beynəlxalq standartlara uyğun avtomobil yolları inşa edilir, dəmir yolu infrastrukturu bərpa olunur, hava limanları istifadəyə verilir, elektrik və qaz təchizatı yenidən qurulur, fiber-optik rabitə şəbəkələri genişləndirilir.

Dünya Bankının 2025-2029-cu illər üzrə Azərbaycan üçün Ölkə Tərəfdaşlıq Çərçivəsində də nəqliyyat dəhlizlərinin inkişafı, rəqəmsal bağlantının gücləndirilməsi və özəl sektorun dəstəklənməsi əsas prioritetlər sırasında göstərilmişdir [30].

Beləliklə, mövcud elmi ədəbiyyatın və rəsmi strateji sənədlərin müqayisəli təhlili göstərir ki, Qarabağ iqtisadi rayonunun əsas üstünlüyü yalnız zəngin təbii resurslara malik olması deyil. Regionun ən mühüm fərqləndirici xüsusiyyəti ənənəvi iqtisadiyyatın bərpası deyil, müasir inkişaf modelinin sıfırdan qurulması imkanıdır. Bu model yaşıl enerji, rəqəmsal infrastruktur, logistika, aqrobiznes və sənaye istehsalının inteqrasiyasına əsaslanır.

## SWOT və PEST təhlilinin nəticələri

Sistemli və kontent təhlilinin nəticələri regionun diversifikasiya potensialının yalnız resurs bazası ilə deyil, infrastruktur, institusional stimullar, bazara çıxış və insan kapitalı ilə birlikdə qiymətləndirilməli olduğunu göstərir. Bu nəticələr SWOT və PEST çərçivəsində aşağıdakı kimi ümumiləşdirilmişdir.

**Cədvəl 3.**

| SWOT elementi | Qarabağ iqtisadi rayonu üzrə nəticə |
|---|---|
| Güclü tərəflər | Dövlət tərəfindən yeni infrastrukturun qurulması; sənaye parkları və vergi-gömrük güzəştləri; aqrar və bərpa olunan enerji potensialı; logistika mövqeyi; istehsal strukturunun sıfırdan müasir texnologiyalarla formalaşdırılması imkanı. |
| Zəif tərəflər | Uzun statistik zaman sıralarının olmaması; yerli tədarük və xidmət zəncirlərinin hələ formalaşma mərhələsində olması; ixtisaslı işçi qüvvəsinə və daimi məskunlaşmanın genişlənməsinə ehtiyac; bəzi layihələrin dövlət investisiyalarından yüksək ilkin asılılığı. |

| | |
|---|---|
| İmkanlar | Qeyri-neft ixracının artması; yaşıl enerji ilə sənayenin inteqrasiyası; aqrar emal və logistika dəyər zəncirləri; yeni regional və beynəlxalq bazarlara çıxış; rəqəmsal və “ağıllı” həllərin tətbiqi. |
| Təhdidlər | Geosiyasi və logistika riskləri; xarici bazarlarda qiymət və tələb dəyişkənliyi; layihələrin icra müddətlərinin uzanması; ixtisaslı kadr çatışmazlığı; dövlət dəstəyindən özəl sektorun özünüdaşıyan inkişafına keçidin ləngiməsi. |

**Cədvəl 4.** Qarabağ iqtisadi rayonunun PEST təhlili

| Amil | Müşahidə olunan təsir | Diversifikasiya və biznes sabitliyinə nəticə |
|---|---|---|
| P - siyasi/institusional | Dövlət proqramları, sənaye parkları, vergi və gömrük güzəştləri, infrastruktur investisiyaları | İlkin investisiya riskini azaldır və özəl kapitalın daxil olmasını sürətləndirir; uzunmüddətli nəticə institusional davamlılıqdan asılıdır. |
| E - iqtisadi | Sənaye, aqrobiznes, enerji və logistika yatırımları; satış və ixracın artması | Gəlir və bazar mənbələrinin genişlənməsi biznes sabitliyi üçün müsbət siqnal yaradır; xarici tələb və maliyyə şərtləri risk olaraq qalır. |
| S - sosial | Böyük Qayıdış, yeni məşğulluq, peşə və texniki bacarıqlara tələbat | Əmək bazasının genişlənməsi istehsalın davamlılığını dəstəkləyir; kadr çatışmazlığı inkişaf tempini məhdudlaşdıra bilər. |
| T - texnoloji | Yaşıl enerji, rəqəmsal xidmətlər, müasir istehsal avadanlığı, ağıllı şəhər/kənd həlləri | Məhsuldarlıq və yeni fəaliyyət növləri üçün baza yaradır; texnologiyanın mənimsənilməsi və bacarıqların uyğunluğu əsas şərtdir. |

SWOT və PEST nəticələri göstərir ki, regionun əsas üstünlüyü dövlət tərəfindən yaradılan başlanğıc infrastruktur və institusional şəraitin çoxsektorlu investisiya imkanları ilə üst-üstə düşməsidir. Əsas risk isə bu başlanğıc impulsun özəl sektorun davamlı satış, ixrac, innovasiya və məşğulluq nəticələrinə çevrilmə sürətidir.

## Qarabağ iqtisadi rayonunda sənaye potensialı və iqtisadi diversifikasiyanın institusional alətləri

İqtisadiyyatın diversifikasiyasının uğuru yalnız mövcud resurslardan deyil, həm də həmin resursların yüksək əlavə dəyər yaradan istehsala çevrilməsini təmin edən institusional mexanizmlərdən asılıdır. Müasir regional inkişaf nəzəriyyələrində sənaye parkları, texnoparklar və xüsusi iqtisadi zonalar innovasiya, texnologiya transferi və istehsal kooperasiyasını gücləndirən əsas alətlər kimi qiymətləndirilir [20, s.80].

Azərbaycan Respublikasında işğaldan azad edilmiş ərazilərin iqtisadi reinteqrasiyası məqsədilə yaradılmış **Ağdam Sənaye Parkı** və **“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı** bu baxımdan yeni regional sənaye siyasətinin əsas elementləridir. Hər iki parkın yaradılmasının məqsədi regionun sənaye potensialının reallaşdırılması, qeyri-neft sənayesinin inkişafı, yeni iş yerlərinin yaradılması və özəl investisiyaların cəlb edilməsidir. Dövlət tərəfindən rezidentlərə hazır mühəndis-kommunikasiya infrastrukturu təqdim olunur, həmçinin vergi və gömrük güzəştləri tətbiq edilir [12].

**Cədvəl 5.** Ağdam Sənaye Parkının inkişaf dinamikası üzrə seçilmiş rəsmi göstəricilər

| Müşahidə tarixi | Rezidentlər | Faktiki investisiya | Daimi iş yerləri | Satış/istehsal | İxrac |
|---|---|---|---|---|---|
| 13.05.2022 | 9 | -* | -* | - | - |
| 14.07.2023 | 17 (+5 qeyri-rez.) | -* | -* | - | - |
| 06.02.2025 | 29 (+4 qeyri-rez.) | 107 mln. manat | 450-dən çox | 22,3 mln. manat | məlumat verilməyib |
| 22.08.2025 | 30 (+4 qeyri-rez.) | ≈138 mln. manat | 900-dən çox | ≈500 mln. manat (istehsal) | ≈18 mln. manat |
| 06.02.2026 | 32 (+5 qeyri-rez.) | 145,8 mln. manat | ≈1 000 | 1,4 mlrd. manat | 62,3 mln. manat |

**Mənbə:** İqtisadi Zonaların İnkişafı Agentliyinin 2022-2026-cı illər üzrə rəsmi məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir. *2022-2023-cü illərdə dərc olunan mənbələrdə investisiya və məşğulluq əsasən plan göstəriciləri kimi təqdim olunduğundan faktiki dinamika ilə qarışdırılmamışdır

Dinamik təhlil Ağdam Sənaye Parkında qeydiyyatdan faktiki istehsala keçidin sürətləndiyini göstərir. Rezidentlərin sayı 2022-ci ilin mayında 9-dan 2026-cı ilin fevralında 32-yə yüksəlmişdir. Daha müqayisəolunan faktiki göstəricilərə görə 2025-ci ilin əvvəlindən 2026-cı ilin fevralına investisiyalar 107 mln. manatdan 145,8 mln. manata, daimi iş yerləri 450-dən çox səviyyədən təxminən 1 000-ə yüksəlmişdir. Rəsmi müqayisəyə əsasən, məhsul satışı 2024-cü ildə 22,3 mln. manatdan 2025-ci ildə 1 393 mln. manata yüksələrək təxminən 62 dəfə artmış, ixrac isə 20 min manatdan 62,3 mln. manata çatmışdır. 2025-ci ilin yekun satışlarında ixracın payı təxminən 4,5% təşkil etmişdir. Bu nəticələr biznes sabitliyinin bütün aspektlərini sübut etməsə də, istehsalın kommersiyalaşması, bazar fəaliyyətinin və xarici satışların genişlənməsi baxımından güclü müsbət dinamika göstərir.

Ağdam və Araz Vadisi sənaye parklarının müqayisəli təhlili göstərir ki, Ağdam Sənaye Parkı hazırda investisiya portfeli, rezident sayı və istehsal göstəricilərinə görə ölkənin ən iri sənaye parklarından biridir. Bu isə Qarabağ iqtisadi rayonunun gələcəkdə ölkənin qeyri-neft sənayesinin əsas inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əlverişli zəmin yaradır.

**Cədvəl 6.** “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının seçilmiş göstəricilər üzrə dinamikası

| Müşahidə tarixi | Rezidentlər | Qeyri-rezidentlər | Faktiki investisiya | Daimi iş yerləri | Satış göstəricisi |
|---|---|---|---|---|---|
| 06.02.2025 | 16 | 2 | 29,6 mln. manatdan çox | ≈100 | - |
| 05.06.2025 | 17 | 3 | 35 mln. manatdan çox | ≈100 | - |
| 22.08.2025 | 18 | 3 | məlumat ayrıca verilməyib | - | 3,4 mln. manat kumulyativ; 2025 I yarımildə 2,7 mln. |
| 2026-cı il (son rəsmi məlumat) | 20 | 3 | 48,3 mln. manatdan çox | 130-dan çox | - |

**Mənbə:** İqtisadi Zonaların İnkişafı Agentliyinin 2025-2026-cı illər üzrə rəsmi məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.

"Araz Vadisi İqtisadi Zonası" üzrə müşahidələr də artım istiqamətini göstərir. 2025-ci ilin fevralından 2026-cı ildə açıqlanan son rəsmi göstəriciyə qədər rezidentlərin sayı 16-dan 20-yə (25%), faktiki investisiya 29,6 mln. manatdan 48,3 mln. manatdan çox səviyyəyə (ən azı 63%), daimi iş yerləri isə təxminən 100-dən 130-dan çox səviyyəyə yüksəlmişdir. 2025-ci ilin avqustunda park üzrə kumulyativ satış 3,4 mln. manat, həmin ilin ilk yarısında isə 2,7 mln. manat olmuşdur. Ağdamla müqayisədə "Araz Vadisi" daha erkən kommersiyalaşma mərhələsindədir; buna görə iki parkın göstəricilərini eyni inkişaf mərhələsinin nəticəsi kimi deyil, müxtəlif yetişmə mərhələlərində olan sənaye ekosistemləri kimi şərh etmək daha düzgündür.

## Qarabağ iqtisadi rayonunda yaşıl enerji iqtisadiyyatı və onun iqtisadi diversifikasiyaya təsiri

Son onilliklərdə dünya iqtisadiyyatında müşahidə olunan dekarbonizasiya prosesi, enerji təhlükəsizliyi problemləri və iqlim dəyişikliyi ilə mübarizə tədbirləri bərpa olunan enerji mənbələrinin iqtisadi inkişaf strategiyalarında rolunu əhəmiyyətli dərəcədə artırmışdır. OECD və Dünya Bankının son hesabatlarında yaşıl enerji keçidi yalnız enerji sektorunun transformasiyası kimi deyil, həm də investisiya axınlarını, sənaye strukturunu, innovasiya fəaliyyətini və məşğulluğu yenidən formalaşdıran strateji inkişaf modeli kimi qiymətləndirilir [17; 28; 29].

Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərin "Yaşıl Enerji Zonası" elan edilməsi Qarabağ və Şərqi Zəngəzurun yeni iqtisadi inkişaf modelinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu konsepsiya bərpa olunan enerji istehsalı ilə yanaşı, enerji səmərəliliyinin artırılması, aşağı karbon emissiyalı iqtisadiyyatın qurulması və dayanıqlı yaşayış məntəqələrinin formalaşdırılmasını nəzərdə tutur [3].

Qarabağ iqtisadi rayonunda yaşıl enerji siyasəti klassik enerji siyasətindən fərqlənir. Burada məqsəd yalnız elektrik enerjisi istehsalını artırmaq deyil, həm də yaşıl enerji əsasında sənaye, kənd təsərrüfatı, rəqəmsal texnologiyalar və logistikanın inkişafını təmin edən yeni iqtisadi ekosistem formalaşdırmaqdır. Azərbaycan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) məlumatına əsasən, işğaldan azad edilmiş ərazilər ölkənin ən yüksək bərpa olunan enerji potensialına malik regionlarından biridir [31].

**Cədvəl 7.** Qarabağ və Şərqi Zəngəzurun texniki bərpa olunan enerji potensialı

| Enerji mənbəyi | Texniki potensial |
|---|---|
| Günəş enerjisi (Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı) | 7 200 MVt-dan çox |
| Külək enerjisi (Laçın və Kəlbəcər) | 2 000 MVt |
| Kiçik su elektrik stansiyaları | Mühüm hidroenerji potensialı (Tərtər və Həkəri çay hövzələri) |

**Mənbə:** Azərbaycan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Bərpa olunan enerji mənbələrinin potensialı. https://area.gov.az/az/page/yasil-texnologiyalar/boem-potensiali

Bu göstəricilər göstərir ki, işğaldan azad edilmiş ərazilər Azərbaycanın bərpa olunan enerji strategiyasında əsas inkişaf məkanlarından biridir. Energetika Nazirliyinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonası konsepsiyasının icrası çərçivəsində hidroenerji, günəş və külək layihələrinin həyata keçirilməsi davam etdirilir.

**Cədvəl 8.** İşğaldan azad edilmiş ərazilərdə əsas yaşıl enerji göstəriciləri

| Göstərici | 2025-ci ilin sonuna |
|---|---|
| Fəaliyyətdə olan su elektrik stansiyaları | 38 |
| Ümumi quraşdırılmış hidroenerji gücü | 307 MVt |
| Cəbrayılda layihələndirilən "Şəms" Günəş Elektrik Stansiyası | 50 MVt |
| Cəbrayılda layihələndirilən "Üfüq" Günəş Elektrik Stansiyası | 50 MVt |
| "Şəfəq" Günəş Elektrik Stansiyası | 240 MVt (Tikilir) |

**Mənbə:** Azərbaycan Respublikası Energetika Nazirliyi (2025). Yaşıl Enerji üzrə İşçi Qrupun 11-ci iclası. https://minenergy.gov.az/az/xeberler-arxivi/00700

Bu layihələr regionun enerji təminatını gücləndirməklə yanaşı, yeni sənaye müəssisələrinin və xidmət sektorunun inkişafı üçün də mühüm baza yaradır. Müasir iqtisadi nəzəriyyəyə görə, bərpa olunan enerji layihələrinin təsiri yalnız enerji istehsalı ilə məhdudlaşmır və bir sıra istiqamətlər üzrə iqtisadi diversifikasiyanı tələb edir. Bura daxildir:

– Enerji xərclərinin azaldılması;

– Sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəlməsi;

– Xarici investisiyaların cəlb olunması;

– Yüksək texnologiyalı istehsalın inkişafı;

– "Yaşıl" iş yerlərinin yaradılması;

– İxrac potensialının genişlənməsi.

Dünya Bankının son illərə dair tədqiqatları göstərir ki, aşağı karbonlu enerji sisteminə keçid uzunmüddətli dövrdə məhsuldarlığın yüksəlməsinə, texnoloji innovasiyaların artmasına və özəl investisiyaların genişlənməsinə müsbət təsir göstərir [28].

Qarabağ iqtisadi rayonunda yaşıl enerji layihələrinin sənaye parkları, aqrobiznes və rəqəmsal infrastruktur ilə paralel inkişaf etdirilməsi iqtisadiyyatın şaxələndirilməsi baxımından sinerji effekti yaradır. Bu yanaşma regionun yalnız enerji istehsalçısı deyil, həm də yaşıl texnologiyalar əsasında fəaliyyət göstərən rəqabətqabiliyyətli iqtisadi məkana çevrilməsi üçün zəmin formalaşdırır. Aparılmış təhlil göstərir ki, Qarabağ iqtisadi rayonunda həyata keçirilən yaşıl enerji siyasəti enerji layihələrinin məcmusu kimi deyil, regional iqtisadi transformasiya strategiyasının institusional elementi kimi qiymətləndirilməlidir. Regionda günəş, külək və hidroenerji potensialının sənaye parkları, aqrar istehsal və rəqəmsal infrastrukturla inteqrasiyası iqtisadiyyatın diversifikasiyasına çoxşaxəli təsir göstərir. Bu baxımdan Qarabağda formalaşdırılan model beynəlxalq ədəbiyyatda "yaşıl inkişaf" və "regionların yaşıl

transformasiyası" yanaşmaları ilə uyğunluq təşkil edir və Azərbaycanın qeyri-neft iqtisadiyyatının inkişafında yeni institusional mərhələnin əsasını təşkil edə bilər.

**Qarabağ iqtisadi rayonunda aqrar sektorun və aqrobiznesin iqtisadi diversifikasiyada rolu**

Müasir regional inkişaf nəzəriyyələrində kənd təsərrüfatı yalnız ərzaq təhlükəsizliyini təmin edən sahə kimi deyil, həm də sənaye, logistika, emal və ixrac fəaliyyətlərini birləşdirən aqrar dəyər zəncirinin əsas həlqəsi kimi qiymətləndirilir. Xüsusilə postmünaqişə regionlarında aqrar istehsalın bərpası iqtisadi fəallığın, məşğulluğun və əhalinin geri qayıdışının əsas iqtisadi dayaqlarından biri hesab olunur. Bu baxımdan Qarabağ iqtisadi rayonunda aqrar sektorun inkişafı yalnız kənd təsərrüfatı istehsalının artırılması deyil, həm də regionun iqtisadiyyatının şaxələndirilməsi, emal sənayesinin formalaşdırılması və özəl investisiyaların stimullaşdırılması üçün strateji əhəmiyyət daşıyır [16; 25].

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası və "Böyük Qayıdışa dair I Dövlət Proqramı" işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının müasir texnologiyalar əsasında inkişafını, suvarma sistemlərinin bərpasını, aqroparkların yaradılmasını və rəqabətqabiliyyətli aqrobiznes modelinin formalaşdırılmasını əsas prioritetlər kimi müəyyən etmişdir [5; 6].

Qarabağ iqtisadi rayonu müxtəlif yüksəklik qurşaqları və əlverişli iqlim şəraiti ilə seçilir ki, bu da çoxprofilli kənd təsərrüfatının inkişafına imkan yaradır. Elmi ədəbiyyatda bu cür ərazilər aqroiqlim müxtəlifliyi yüksək olan regionlar kimi xarakterizə edilir və məhsul portfelinin genişləndirilməsi baxımından üstün hesab olunur. Region üçün perspektivli istiqamətlər kimi taxılçılıq, üzümçülük, bağçılıq və meyvəçilik, tərəvəzçilik, yem bitkilərinin istehsalı, ətlik və südlük heyvandarlıq, arıçılıq, dərman və efiryağlı bitkilərin becərilməsi qeyd olunur. Lakin iqtisadi diversifikasiya baxımından əsas məsələ xammal istehsalının artırılması deyil, həmin məhsulların emalı, qablaşdırılması, saxlanması və ixracını təmin edən aqrobiznes ekosisteminin formalaşdırılmasıdır. Bu yanaşma kənd təsərrüfatında əlavə dəyərin yüksəldilməsinə və regionun qeyri-neft ixrac potensialının genişlənməsinə xidmət edir [25].

Bu baxımdan Azərbaycanın aqrar siyasətində aqroparklar inteqrasiya olunmuş istehsal modeli kimi çıxış edir. Bu model torpaq ehtiyatları, suvarma infrastrukturu, kənd təsərrüfatı texnikası, emal müəssisələri və logistika xidmətlərini vahid istehsal zəncirində birləşdirir. Qarabağ iqtisadi rayonunda da belə yanaşmanın tətbiqi regionun iqtisadi potensialından daha səmərəli istifadə etməyə imkan verir.

Beynəlxalq təcrübə göstərir ki, aqroparklar kənd təsərrüfatının məhsuldarlığını artırmaqla yanaşı, emal sənayesinin inkişafını, innovativ texnologiyaların tətbiqini və kənd yerlərində dayanıqlı məşğulluğun formalaşmasını sürətləndirir [25]. OECD-nin kənd təsərrüfatının rəqabət qabiliyyəti ilə bağlı araşdırmalarında da aqrar istehsalın dəyər zənciri prinsipi əsasında təşkili iqtisadi diversifikasiyaya mühüm töhfə verən əsas amillərdən biri kimi göstərilir [16].

**Cədvəl 9.** Qarabağ iqtisadi rayonunda aqrobiznesin inkişafının əsas istiqamətləri

| **İstiqamət** | **Diversifikasiyaya təsiri** | **Biznes sabitliyinə təsiri** |
|---|---|---|
| Müasir suvarma sistemləri | Məhsuldarlığın artması | İqlim risklərinin azalması |
| Aqroparklar | İnteqrasiya olunmuş istehsal | Xərclərin optimallaşdırılması |
| Aqrar emal sənayesi | Əlavə dəyərin yüksəlməsi | Gəlirlərin şaxələndirilməsi |
| Soyuducu və logistika mərkəzləri | Məhsul itkilərinin azalması | Satış bazarlarının genişlənməsi |
| Rəqəmsal kənd təsərrüfatı | Resurslardan səmərəli istifadə | İdarəetmə risklərinin azalması |

**Mənbə:** Müəlliflər tərəfindən Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin strateji sənədləri və Dünya Bankının kənd təsərrüfatı üzrə metodoloji yanaşmaları əsasında hazırlanıb

Biznes sabitliyi yalnız istehsal həcminin artması ilə müəyyən edilmir. Müasir iqtisadi nəzəriyyələrə əsasən, müəssisənin dayanıqlığı onun müxtəlif gəlir mənbələrinə, bazarlara çıxış imkanlarına və dəyər zəncirində tutduğu mövqeyə bağlıdır [23]. Qarabağ iqtisadi rayonunda aqrobiznesin emal, logistika və ixrac xidmətləri ilə inteqrasiyası kənd təsərrüfatı istehsalçılarının bazar risklərini azaltmağa, mövsümi gəlir dəyişkənliyini yumşaltmağa və investisiya cəlbediciliyini artırmağa imkan verir. Bu baxımdan aqrar sektorun inkişafı təkcə kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi deyil, həm də regional iqtisadiyyatın diversifikasiyasının mühüm institusional elementi kimi qiymətləndirilməlidir.

Aparılmış təhlil göstərir ki, Qarabağ iqtisadi rayonunda aqrar siyasətin səmərəliliyi istehsal həcminin artırılmasından daha çox aqrar dəyər zəncirinin tam formalaşdırılmasından asılı olacaq. Regionda aqroparkların, emal müəssisələrinin, logistika mərkəzlərinin və rəqəmsal kənd təsərrüfatı həllərinin paralel inkişafı kənd təsərrüfatını aşağı əlavə dəyər yaradan sahədən yüksək məhsuldarlığa və ixracyönümlü istehsala malik iqtisadi fəaliyyət sahəsinə çevirmək potensialına malikdir. Bu yanaşma iqtisadiyyatın diversifikasiyası strategiyasının biznes sabitliyinə təsirini gücləndirən əsas mexanizmlərdən biri kimi qiymətləndirilə bilər

## Qarabağ iqtisadi rayonunda iqtisadi diversifikasiya üzrə beynəlxalq təcrübənin müqayisəli təhlili və Azərbaycan üçün çıxarılan nəticələr

Beynəlxalq təcrübə də göstərir ki, münaqişədən sonrakı dövrdə iqtisadiyyatın bərpasının davamlılığı yalnız infrastrukturun yenidən qurulmasından deyil, iqtisadi strukturun yenilənməsindən asılıdır. Dünya Bankının postmünaqişə ölkələri üzrə araşdırmalarında qeyd olunur ki, ilkin mərhələdə dövlət investisiyaları vacib olsa da, orta və uzunmüddətli inkişaf üçün əsas prioritet özəl sektorun inkişafı, iqtisadi diversifikasiya və məhsuldarlığın artırılması olmalıdır [24].

OECD-nin Qərbi Balkan ölkələri üzrə çoxölçülü inkişaf təhlilləri göstərir ki, postmünaqişə dövründə rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması üçün əlverişli biznes mühitinin yaradılması, nəqliyyat və rəqəmsal infrastrukturun inkişafı, insan kapitalının

gücləndirilməsi, innovasiya və rəqəmsal transformasiyanın təşviqi, eləcə də yaşıl iqtisadiyyata keçid prioritet istiqamətlər kimi qiymətləndirilir [18].

Bu yanaşma Qarabağ iqtisadi rayonunun inkişaf strategiyası ilə əhəmiyyətli dərəcədə üst-üstə düşür. Qarabağ iqtisadi rayonunda iqtisadi diversifikasiya üzrə beynəlxalq təcrübəni Bosniya və Herseqovina təcrübəsində nəzərdən keçirə bilərik. Çünki Bosniya və Herseqovina da postmünaqişə iqtisadiyyatlarından biridir. Dünya Bankının Country Economic Memorandum (2024) hesabatı göstərir ki, ölkədə infrastrukturun bərpasına baxmayaraq, özəl investisiyaların zəifliyi, məhsuldarlığın aşağı səviyyəsi, parçalanmış daxili bazar və mürəkkəb inzibati sistem iqtisadi transformasiyanı ləngitmişdir [29].

**Cədvəl 10.** Qarabağ və Bosniya və Herseqovinanın postmünaqişə inkişaf modellərinin müqayisəsi

| Müqayisə meyarı | Bosniya və Herseqovina | Qarabağ iqtisadi rayonu |
|---|---|---|
| İnkişafın ilkin mərhələsi | Müharibədən sonra infrastrukturun bərpası | İnfrastrukturun və yeni iqtisadi modelin paralel qurulması |
| Sənaye siyasəti | Məhdud sənaye transformasiyası | Sənaye parkları və iqtisadi zonalar Yaradılır |
| Enerji siyasəti | Ənənəvi enerji üstünlük təşkil edir | "Yaşıl Enerji Zonası" konsepsiyası tətbiq Edilir |
| Rəqəmsallaşma | Mərhələli inkişaf | "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları tətbiq olunur |
| Dövlət siyasəti | Rekonstruksiya yönümlü | Rekonstruksiya və struktur transformasiyası paralel həyata keçirilir |

**Mənbə:** Müəlliflər tərəfindən World Bank-ın Bosniya və Herseqovina üzrə Country Economic Memorandum (2024) və OECD-nin Western Balkans Competitiveness Outlook 2024 hesabatları əsasında hazırlanmışdır.

OECD-nin eyni ölkə üzrə təhlili də göstərir ki, investisiya çatışmazlığı, dövlət müəssisələrinin yüksək payı, logistika problemləri, ixtisaslı işçi qüvvəsinin məhdudluğu və innovasiya zəifliyi əsas struktur məhdudiyyətlərdir [18]. Bu təcrübə göstərir ki, fiziki infrastrukturun bərpası iqtisadi inkişaf üçün vacib olsa da, institusional islahatlar və özəl sektorun gücləndirilməsi olmadan iqtisadi artım təmin edilmir. Bununla yanaşı qeyd etməliyik ki, Bosniya və Herseqovina təcrübəsi ilə müqayisədə Qarabağ iqtisadi rayonunun inkişaf modelində fərqləndirici xüsusiyyətlər müşahidə olunur.

Müqayisəli təhlil göstərir ki, Qarabağ iqtisadi rayonunda həyata keçirilən inkişaf modeli klassik postmünaqişə bərpa modelindən fərqlənir. Burada əsas məqsəd dağıdılmış iqtisadiyyatın əvvəlki vəziyyətə qaytarılması deyil, daha yüksək məhsuldarlığa malik yeni regional iqtisadi sistemin formalaşdırılmasıdır.

Beynəlxalq təcrübə və aparılan təhlil əsasında aşağıdakı nəticələr əldə edilir:

– İnfrastruktur investisiyaları özəl investisiyalarla tamamlanmadıqda uzunmüddətli iqtisadi artım məhdudlaşır.

– İqtisadi diversifikasiya sənaye, kənd təsərrüfatı, logistika və xidmət sektorlarının inteqrasiyasına əsaslanmalıdır.

– Yaşıl enerji və rəqəmsal transformasiya postmünaqişə regionlarının rəqabət üstünlüyünün əsas mənbələrindən birinə çevrilə bilər.

– İnstitusional keyfiyyət, investor etimadı və insan kapitalı iqtisadi diversifikasiyanın davamlılığını müəyyən edən əsas amillərdir.

## Qarabağ iqtisadi rayonunda biznes sabitliyinə əsaslanan iqtisadi diversifikasiya modeli

Regional iqtisadi inkişaf nəzəriyyəsində iqtisadi diversifikasiya uzun müddət əsasən istehsal sahələrinin sayının artırılması kimi izah edilmişdir. Lakin son illərdə aparılmış tədqiqatlar göstərir ki, diversifikasiyanın əsas məqsədi yalnız fəaliyyət sahələrinin genişləndirilməsi deyil, həm də iqtisadi sistemin xarici şoklara qarşı dayanıqlığının artırılmasıdır. Bu yanaşma xüsusilə resurslardan asılı və postmünaqişə iqtisadiyyatları üçün aktual hesab olunur. Ricardo Hausmann və César Hidalgo iqtisadi mürəkkəblik nəzəriyyəsində göstərirlər ki, ölkələrin və regionların inkişaf potensialı onların malik olduqları "istehsal qabiliyyətləri"nin müxtəlifliyi ilə müəyyən edilir; daha çox və daha mürəkkəb qabiliyyətlər daha dayanıqlı iqtisadi struktur formalaşdırır [7, s.311].

Digər tərəfdən, Dünya Bankının Azərbaycan üzrə 2025-2029-cu illər üçün Ölkə Tərəfdaşlıq Çərçivəsi özəl sektorun inkişafı, məhsuldarlığın artırılması, yaşıl keçid, rəqəmsal bağlantı və daha keyfiyyətli məşğulluğu Azərbaycanın yeni inkişaf modelinin əsas istiqamətləri kimi müəyyən edir [30].

Bu nəzəri və institusional yanaşmalar göstərir ki, Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın diversifikasiyası ayrıca sektorların inkişafı deyil, qarşılıqlı əlaqəli iqtisadi ekosistemin formalaşdırılması kimi qiymətləndirilməlidir.




**Şəkil 1.** Qarabağ iqtisadi rayonunda iqtisadi diversifikasiyanın biznes sabitliyinə təsir modeli
**Mənbə:** Müəlliflər tərəfindən Porterin klaster yanaşması, Hausmann-Hidalgo-nun iqtisadi mürəkkəblik konsepsiyası və Dünya Bankının Azərbaycan üzrə 2025-2029 Ölkə Tərəfdaşlıq Çərçivəsinin prioritetləri əsasında hazırlanmışdır.

Fikrimizcə iqtisadi diversifikasiyanın biznes sabitliyinə təsiri aşağıdakı zəncir üzrə konseptuallaşdırıla bilər: Dövlət investisiyaları → İnfrastruktur → İnstitusional mühit *(vergi güzəştləri, sənaye parkları, rəqəmsal xidmətlər)* → Özəl investisiyalar (*Sənaye , aqrobiznes, yaşıl enerji, logistika, turizm , rəqəmsal xidmətlər*) → İnnovasiya və məhsuldarlıq → İxrac → yeni məşğulluq → Regional gəlirlərin artması → Biznes sabitliyi → Dayanıqlı iqtisadi inkişaf

**Modelin empirik əsaslandırılması və gələcək test imkanları**

Şəkil 1-də təqdim edilən əlaqələr mövcud məlumatlar əsasında səbəb-nəticə əlaqəsinin ekonometrik sübutu kimi deyil, nəzəri və empirik müşahidələrin sintezi kimi şərh edilməlidir. Dövlət investisiyası → infrastruktur əlaqəsi bərpa və nəqliyyat-enerji-rəqəmsal infrastruktur layihələri ilə; infrastruktur və institusional mühit → özəl investisiya əlaqəsi sənaye parklarında faktiki yatırımlar və rezident sayının artması ilə; özəl investisiya → istehsal/ixrac/məşğulluq əlaqəsi isə Ağdam və "Araz Vadisi" üzrə faktiki istehsal, satış, ixrac və iş yeri göstəriciləri ilə müşahidə olunur. Bununla belə, bu göstəricilər qısa zaman intervalını əhatə etdiyindən statistik səbəbiyyət barədə nəticə çıxarmaq üçün kifayət deyil.

Gələcək empirik test üçün model aşağıdakı dəyişənlərlə əməliyyatlaşdırıla bilər: dövlət kapital qoyuluşları və infrastruktur xərcləri - izahedici dəyişənlər; özəl investisiya və rezident sayı - aralıq dəyişənlər; satış, ixrac, məşğulluq, məhsuldarlıq və regional gəlir - nəticə dəyişənləri; biznes sabitliyi isə müəssisələrin fəaliyyət davamlılığı, satışın dəyişkənliyi, ixrac bazarlarının sayı və investisiya/məşğulluq davamlılığı kimi göstəricilər əsasında kompozit indeks və ya ayrıca nəticə göstəriciləri ilə ölçülə bilər. Kifayət qədər zaman və rayon/park kəsiyi üzrə məlumat toplandıqda korrelyasiya, çoxamilli reqressiya, panel modelləri və gecikməli təsir spesifikasiyalarından istifadə etmək mümkündür.

Təklif edilən model mövcud yanaşmalardan aşağıdakı cəhətlərinə görə fərqlənir:

Birincisi, iqtisadi diversifikasiya yalnız sektorların sayının artırılması kimi deyil, qarşılıqlı əlaqədə fəaliyyət göstərən iqtisadi sistem kimi nəzərdən keçirilir.İkincisi, biznes sabitliyi modelin yekun nəticəsi deyil, eyni zamanda yeni investisiyalar və innovasiyalar üçün təkrar stimullaşdırıcı amil kimi qiymətləndirilir. Bu, dövri inkişaf mexanizmini formalaşdırır. Üçüncüsü, model Qarabağın postmünaqişə şəraitini nəzərə alaraq dövlət investisiyalarının özəl investisiyalara transformasiya mexanizmini izah edir. Bu yanaşma Dünya Bankının məhsuldarlıq və özəl sektorun aparıcı roluna əsaslanan inkişaf çərçivəsi ilə uyğunluq təşkil edir. Dördüncüsü, model yaşıl enerji, rəqəmsal iqtisadiyyat, aqrobiznes, logistika və sənaye parklarını bir-biri ilə əlaqəli inkişaf elementləri kimi təqdim edir. Bu isə klassik sektor yanaşmasından fərqli olaraq iqtisadi ekosistem yanaşmasına əsaslanır.

Təklif olunan konseptual model aşağıdakı istiqamətlərdə tətbiq oluna bilər:

- Qarabağ iqtisadi rayonu üzrə regional inkişaf strategiyalarının hazırlanmasında;
- Sənaye parkları və iqtisadi zonaların fəaliyyətinin qiymətləndirilməsində;
- Dövlət investisiyalarının iqtisadi səmərəliliyinin təhlilində;
- Biznes mühitinin və investisiya cəlbediciliyinin qiymətləndirilməsində;

– İqtisadi diversifikasiya siyasətinin monitorinqi üçün göstəricilər sisteminin hazırlanmasında.

Modelin əsas üstünlüyü ondan ibarətdir ki, o, diversifikasiyanı yalnız iqtisadi artım vasitəsi kimi deyil, biznes sabitliyini və regional dayanıqlılığı təmin edən institusional mexanizm kimi izah edir.

**Nəticə və tövsiyələr.** Aparılmış tədqiqat göstərir ki, Qarabağ iqtisadi rayonunda həyata keçirilən bərpa və yenidənqurma siyasəti ənənəvi postmünaqişə rekonstruksiyası ilə məhdudlaşmır, iqtisadiyyatın struktur transformasiyasına və uzunmüddətli regional inkişafın təmin edilməsinə yönəlmiş kompleks inkişaf modelinə əsaslanır. Sənaye parklarının yaradılması, aqrobiznesin inkişafı, yaşıl enerji layihələrinin həyata keçirilməsi və rəqəmsal həllərin tətbiqi regionda iqtisadiyyatın diversifikasiyası üçün institusional baza formalaşdırır.

Tədqiqatın nəticələri iqtisadi diversifikasiya ilə biznes sabitliyi arasında müsbət əlaqənin formalaşmasına dair təsviri empirik əlamətlər göstərir, lakin mövcud məlumat bazası səbəb-nəticə əlaqəsini ekonometrik olaraq təsdiqləməyə imkan vermir. Ağdam Sənaye Parkında rezident, faktiki investisiya, məşğulluq, satış və ixrac göstəricilərinin yüksəlməsi, "Araz Vadisi İqtisadi Zonası"nda isə rezident və investisiya bazasının genişlənməsi özəl sektor fəallığının artdığını göstərir. SWOT və PEST nəticələri bu dinamikanın dövlət infrastrukturu, institusional güzəştlər, resurs və logistika potensialı ilə dəstəkləndiyini, eyni zamanda insan kapitalı, bazarların yetişmə səviyyəsi və uzunmüddətli məlumat çatışmazlığı kimi risklərin qaldığını göstərir.

Tədqiqatda Qarabağ iqtisadi rayonu üçün biznes sabitliyinə əsaslanan konseptual diversifikasiya modeli təklif edilmişdir. Modelin əsas fərqi Porter, Rodrik və Hausmann-Hidalgo yanaşmalarının ayrı-ayrı güclü tərəflərini postmünaqişə regional inkişaf məntiqində birləşdirməsi və biznes sabitliyini ölçülə bilən nəticə kimi ayrıca göstərməsidir. Model hazırkı mərhələdə konseptual xarakter daşıyır və daha uzun zaman sıraları formalaşdıqda statistik test üçün dəyişənlər sistemini təqdim edir.

Beləliklə, Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın diversifikasiyasının sənaye, aqrobiznes, yaşıl enerji, logistika və rəqəmsal iqtisadiyyatın qarşılıqlı inteqrasiyası əsasında həyata keçirilməsi regionun rəqabət qabiliyyətinin yüksəldilməsi, biznes sabitliyinin möhkəmləndirilməsi və dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi üçün əsas istiqamət kimi qiymətləndirilə bilər.

Aparılmış tədqiqatın nəticələrinə əsasən aşağıdakı tövsiyələrin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. İqtisadi diversifikasiya üzrə vahid regional monitorinq sistemi yaradılmalı; rezident və fəaliyyət göstərən müəssisələrin sayı, faktiki investisiya, satış, ixrac, bazar sayı, məşğulluq və məhsuldarlıq göstəriciləri hər il eyni metodologiya ilə dərc edilməlidir. Bu, biznes

sabitliyinin dinamik qiymətləndirilməsinə və konseptual modelin gələcək ekonometrik testinə imkan verəcəkdir.

2. Sənaye parkları və aqroparklar arasında istehsal kooperasiyası gücləndirilməli, emal sənayesi, logistika və kənd təsərrüfatı arasında inteqrasiya gücləndirilərək regional əlavə dəyər zəncirləri formalaşdırılmalıdır;

3. Yaşıl enerji layihələri iqtisadiyyatın digər sektorları ilə əlaqələndirilməli, bərpa olunan enerji yalnız enerji təminatı deyil, həm də sənaye, aqrobiznes və rəqəmsal xidmətlərin inkişafını stimullaşdıran iqtisadi amil kimi qiymətləndirilməlidir;

4. Özəl investisiyaların təşviqi məqsədilə institusional mexanizmlər daha da təkmilləşdirilməli, investorlar üçün inzibati prosedurlar sadələşdirilməli, rəqəmsal dövlət xidmətlərinin genişləndirilməli və risklərin sığortalanması mexanizmləri gücləndirilməlidir;

5. İnsan kapitalının inkişafına yönəlmiş siyasət prioritetləşdirilməli, Qarabağ iqtisadi rayonunda peşə təhsili, mühəndislik, aqrar texnologiyalar, yaşıl enerji və rəqəmsal bacarıqlar üzrə ixtisaslaşmış kadr hazırlığı genişləndirilməlidir.

6. Regional inkişafın qiymətləndirilməsində nəticəyönümlü idarəetmə prinsipləri tətbiq edilməli, dövlət proqramlarının icrası yalnız maliyyə göstəriciləri ilə deyil, məhsuldarlıq, innovasiya, ixrac, biznes davamlılığı və həyat keyfiyyəti kimi nəticə indikatorları əsasında qiymətləndirilməlidir

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2024), Kənd təsərrüfatı statistikası. https://www.stat.gov.az
2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2024), Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının faydalı qazıntı ehtiyatları. https://eco.gov.az
3. Azərbaycan Respublikası Energetika Nazirliyi (2025), Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji
4. Azərbaycan Respublikası Prezidenti (2021), Azərbaycan Respublikasının İşğaldan Azad Edilmiş Ərazilərində “Yaşıl Enerji” Zonasının Yaradılması ilə Bağlı Tədbirlər Haqqında Sərəncam.
5. Azərbaycan Respublikası Prezidenti (2022a), Azərbaycan Respublikasının 2022-2026-cı İllərdə Sosial-İqtisadi İnkişaf Strategiyası. https://president.az/az/articles/view/56725
6. Azərbaycan Respublikası Prezidenti (2022b), Azərbaycan Respublikasının İşğaldan Azad Edilmiş Ərazilərinə Böyük Qayıdışa Dair I Dövlət Proqramının Təsdiq Edilməsi Haqqında Sərəncam. https://president.az/az/articles/view/57883
7. Hausmann R., Hidalgo C.A. (2011), The network structure of economic output. Journal of Economic Growth, Vol.16, No.4, 309-342. https://doi.org/10.1007/s10887-011-9071-4
8. İqtisadi Zonaların İnkişafı Agentliyi (2022), Ağdam Sənaye Parkında yeni rezidentlər. https://economiczones.gov.az/post/agdam-senaye-parkinda-yeni-rezidentler-196745348

9. İqtisadi Zonaların İnkişafı Agentliyi (2023), "Tabaterra" QSC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. https://economiczones.gov.az/tabaterra-qsc
10. İqtisadi Zonaların İnkişafı Agentliyi (2025a), İşğaldan azad edilmiş ərazilərdə istehsal və investisiya fəallığı artır. https://economiczones.gov.az/post/isgaldan-azad-edilmis-erazilerde-istehsal-ve-investisiya-fealligi-artir
11. İqtisadi Zonaların İnkişafı Agentliyi (2025b), "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni rezident. https://economiczones.gov.az/post/desen-mm-mmc
12. İqtisadi Zonaların İnkişafı Agentliyi (2026a), Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası üzrə fəaliyyət hesabatı. https://economiczones.gov.az
13. İqtisadi Zonaların İnkişafı Agentliyi (2026b), Qarabağda yaradılan sənaye zonaları.
14. İqtisadi Zonaların İnkişafı Agentliyi (2026c), Beynəlxalq Valyuta Fondunun nümayəndə heyəti Ağdam Sənaye Parkında olub. https://economiczones.gov.az/post/bvf-infotur
15. İqtisadi Zonaların İnkişafı Agentliyi (2026d), İZİA-nın İdarə Heyətinin sədri Elşad Nuriyevin AZƏRTAC-a müsahibəsi. https://www.economiczones.gov.az/post/izia-sedr-musahibe-azertac-az
16. OECD (2020), Global value chains in agriculture and food: A synthesis of OECD analysis. https://doi.org/10.1787/6e3993fa-en
17. OECD (2023), Green growth indicators 2023. https://www.oecd.org
18. OECD (2024a), Western Balkans competitiveness outlook 2024: Bosnia and Herzegovina. https://doi.org/10.1787/82e0432e-en
19. OECD (2024b), Western Balkans competitiveness outlook 2024: Regional profile: Competitiveness and private sector development. https://doi.org/10.1787/170b0e53-en
20. Porter M.E. (1998), Clusters and the new economics of competition. Harvard Business Review, Vol.76, No.6, 77-90.
21. Porter M.E. (1990), The Competitive Advantage of Nations. New York: Free Press.
22. Qarabağ Dirçəliş Fondu (2024), Böyük Qayıdış proqramı üzrə illik fəaliyyət hesabatı. https://qdf.gov.az
23. Rodrik D. (2004), Industrial policy for the twenty-first century. Harvard University, John F. Kennedy School of Government.
24. World Bank (2005), Bosnia and Herzegovina: Post-Conflict Reconstruction and the Transition to a Market Economy: An OED Evaluation of World Bank Support. https://doi.org/10.1596/0-8213-5978-9
25. World Bank (2022a), Azerbaijan: Country Economic Memorandum. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099100009222236784

26. World Bank (2022b), Azerbaijan: Towards Green Growth (Country Environmental Analysis). https://openknowledge.worldbank.org/entities/publication/0f566ee6-088f-5f9b-a5d4-0f23e7c5b8ee
27. World Bank (2023), Azerbaijan country climate and development report. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099112723161524095
28. World Bank (2024a), Net zero energy by 2060: Charting the path of Europe and Central Asia toward a secure and sustainable energy future. https://documents1.worldbank.org/curated/en/099022124142035945/pdf/P17774414c3d1609 d1a10c1c69a4e516dd0.pdf
29. World Bank (2024b), Bosnia and Herzegovina country economic memorandum: Harnessing the new growth model. https://doi.org/10.1596/41059
30. World Bank (2025), Azerbaijan: Country Partnership Framework for the Period FY25–FY29. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099122324092531709
31. Azərbaycan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Bərpa olunan enerji mənbələrinin potensialı. https://area.gov.az/az/page/yasil-texnologiyalar/boem-potensiali